

# Azərbaycan əsgərinin uğurları xaricdəki həmvətənlərimizi də sevindirir

**Azərbaycan Prezidenti və Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müzəffər ordumuzun yeni yaşayış məntəqələrinin və strateji mövqelərin işğaldan azad etməsi haqqında xalqa müraciətində səsləndirdiyi xəbərlər, Hadrut qəsəbəsinin, Çaylı, Yuxarı Güzlək, Gorazıllı, Qışlaq, Qaracallı, Əfəndilər, Süleymanlı, Sur kəndlərinin işğaldan azad edilməsi kimi tarixi qələbə ölkəmizdən kənarda yaşayan həmvətənlərimiz tərəfindən də böyük sevinc və qürur hissi ilə qarşılanmaqdadır.**

**Qardaş Türkiyənin Samsun 19 Mayıs Universitetinin kafedra müdiri professor Azər Qasımzadə bildirir ki,** bu gün Azərbaycan Ordusunun döyüş meydanında qazandığı qələbə əsgərlərimizin üstünlüyünün təsdiqidir. Azərbaycan əsgərinin yüksək mənəvi psixoloji keyfiyyətləri də təsdiq edir ki, qələbə bizimlədir. Cənab Prezidentin dediyi kimi, bu gün işğaldan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Bu gün Azərbaycan əsgərləri bizim işğal edilmiş torpaqlarda ermənilərin qazdıqları səngərlərdə keşik çəkirlər – onlar bizim yox, biz onların səngərlərində, biz onların postlarında, biz onların tanklarında. Qənimət kimi götürülmüş hərbi texnikadan indi biz istifadə edirik. Onların tankları indi döyüş meydanında onlara qarşı vuruşur. Budur Azərbaycan Ordusunun üstünlüyü, bizim üstünlüyümüz.

Azər müəllim onu da bildirir ki, bu gün Qara dəniz bölgəsinin ən böyük şəhəri olan Samsunda yaşananlar, samsunluların Azərbaycan xalqına verdiyi dəstək bütün diplomatik əlaqələrin fonunda bir-birinə qardaş olan Türkiyə və Azərbaycan münasibətlərinin böyüklüyünü bir daha təsdiq etməkdədir. Samsunluların Azərbaycan Ordusunun sentyabrın 27-dən başlayan əks-hücum əməliyyatlarını uğurla davam etdirilməsini alqışladığını, xalqımızın torpaqlarımızın azadlığı uğrunda mübarizəsinin böyük sevgi ilə qarşılandığını bildirmişdir. O, qeyd etmişdir ki, indi Azərbaycandan aldığımız qələbə xəbərləri bayram əhvalı və möhtəşəm tədbirlərlə qarşılanmaqdadır. Ermənistanın Azərbaycana qarşı yeni təcavüz aktı başladılanda Samsun Milli İradə Platformasının (SAMİR) təşkilatçılığı ilə “Böyük Cami” önündəki meydanda baş tutan izdihamlı tədbirdə Azərbaycanın haqlı mövqeyi müdafiə edildi. Az sonra Azərbaycanı dəstəkləmək üçün “Qardaşlıq zamanıdır” şüarı ilə bütün şəhəri əhatə edən avtoyürüş təşkil edildi. Keçirilən dəstək aksiyalarında Azərbaycanın haqq işinə dəstək verilmiş, erməni işğalçılarının işğal etdiyi ərazilərdən dərhal geri çəkilməsi, regionun yenidən sülh və sabitliyə qovuşması tələb edilmişdir.

Ermənistan son hücumları ilə bir daha bölgədəki sülh və əmin-amanlığa ən böyük təhdid olduğunu göstərdi. Dünya ictimaiyyətinin biganəliyindən ruhlanan Ermənistan, bütün beynəlxalq konvensiyalara məhəl qoymayan hücumlarını artıraraq, mülki yaşayış məntəqələrini raket atəşləri ilə vurmaqda davam edir. Biz Vətəndən uzaqlarda yaşasaq da aldığımız xəbərləri həyacanla izləyir, Ermənistanın təcavüzkar hücumlarını pisləyir, dövlətimizin və xalqımızın yanında olduğumuzu bildiririk. Dünyanın bütün ölkələrini, bütün vicdanlı insanları işğala və zülmə qarşı mübarizədə Azərbaycanın yanında olmağa çağırırıq. Nəhayət ki, işğalçı ilə işğala qarşı mübarizə aparanlara fərq qoymayan Fransa kimi erməni havadarları bilməlidir ki, Azərbaycan əsgəri öz torpağı uğrunda vuruşur, öz torpaqlarını azad edir. Qarabağ Azərbaycandır.

**Türkiyənin Ağdəniz Universitetinin Azərbaycan əsilli professoru Tərlan Məmmədov bildirir ki,** Ordumuzun Qarabag uğrundakı döyüşlərdəki zəfərini alqışlayır, bu münasibətlə bütün xalqımızı təbrik edirəm. 30 ilə yaxın bir dövrdə gözlədiklərimizin reallığa çevrilməsi, bu uğurların sonu olaraq çox yaxın bir zamanda doğma torpaqlarımızın düşmənlərdən təmizlənməsi ilə bitəcəyi günü səbirsizliklə gözləyirik.

Möhtərəm Prezidentimiz və Ali Baş Komandan İlham Əliyevin “hər gün cəbhədən xoş xəbərlər gəlir” deyimini ruh yüksəkliyi ilə qarşılayır və indi hər açılan səhərin yeni müjdə ilə gələcəyini gözləyirik. Cənab Prezident beynəlxalq qurumlara və düşmənin havadarlarına Azərbaycanın öz haqlı mövqeyindən dönməyəcəyini qətiyyətlə bildirdi. Doğrudan da, əgər Ermənistan bundan sonra da itkilərə məruz qalmaq istəmirsə, bölgədə sülhün bərqərar olmasının tərəfdarıdırsa ərazilərimizi qeyd-şərtsiz tərk etməlidir.

Uzun illərdir ki, Yaponiyada və Amerikada çalışmışam. 20 il müddətində hər dəfə ölkəmizə gələndə hava limanından başlayan təəssüratlarım mənə sevinc yaşadıb. Ola bilsin ki, burada yaşasaydım bu inkişafı görmək bir az çətin olardı, amma az müddətli bir ayrılıqdan sonra gördüklərim sevinc dolu bir heyrət yaradır. Ölkəmizin ildən-ilə necə dəyişdiyini görməkdən, gözəl və qüdrətli bir məmləkətə çevrilməsinə şahidlik etməkdən qürur duymuşam. Eyni zamanda xarici ölkələrdə də Azərbaycanın adının tanınması, onun uğurları haqqında eşitdiklərimiz bizi sevindirib.

Artıq 6 ildən çoxdur ki, Turkiyənin Ağdəniz Universitetində çalışıram. Burada yeni növ koronavirus (COVID-19) əleyhinə yaşıl bitkidən vaksin alınmasında tədqiqatları uğurla davam etdirməkdəyik. Artıq 2 vaksin nümunəsi heyvanlar üzərində test edilib. COVID-19 kimi gözəgörünməz bir düşmənlə mübarizəmizin uğurlarına inamım qədər də erməni qəsbkarları üzərində qələbəmizə böyük inamım var və əminəm ki, erməni işğalçıları üzərində qələbə xalqımızın, eləcə də Azərbaycanın haqq işinə dəstək olanların və bundan sevinənlərin daha böyük uğuru olacaqdır.

Yeri gəlmişkən, bizə qardaş dəstəyi göstərən Türkiyə dövlətinə və xalqına minnətdarlığımı bildirmək istəyirəm. Eyni zamanda, demək istəyirəm ki, haqq işimizi müdafiə edən türk qardaşlarımızın əvəzsiz dəstəyini sözlə ifadə etmək mümkün deyil. Hadisələr də göstərdi ki, iki dövlət – bir millət anlamının tarixi uğuru zaman keçdikcə daha böyük dəyər qazanmaqdadır. Bu dəyər, şübhəsiz ki, dini, dili, mədəniyyəti ortaq olan xalqlarımızın qədim tarixinin ən dəyərli töhfələridir. Böyük Qələbə yaxındadır. Qarabağ bizimdir və həmişə bizim olacaq.

**Namiq QƏDİMOĞLU,**
**“Xalq qəzeti”**